# Turizmin inkişafı üçün 20 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur

Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında bir sıra qanun layihələrinə təklif olunan dəyişikliklər müzakirə edilib.

"Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsini təqdim edən komitənin sədri Ziyad Səmədzadə bildirib ki, 2018-ci il ölkəmiz üçün uğurlu keçir. Nəzərdə tutulan bütün proqnozlar reallaşdırılır. Layihə "Büdcə sistemi haqqında" qanunun müddəalarına uyğun olaraq tərtib olunub.

Qanun layihəsi haqqında danışan maliyyə naziri Samir Şərifov bildirib ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq ölkənin müdafiə və təhlükəsizliyinin daha da gücləndirilməsi, əhalinin həssas sosial qruplarının müdafiəsinin daha da yaxşılaşdrılması və digər zəruri dövlət vəzifələrinin maliyyələşdirilməsi ilə əlaqədar əlavə müavinət təminatının formalaşdırılması zərurəti 2018-ci il dövlət və icmal büdcələrinin gəlirlərinə yenidən baxılmasını şərtləndirib.

Xam neftin dünya bazarlarında qiymətinin əhəmiyyətli dərəcədə artmasına rəğmən, onun 1 barelinin satış qiymətinin təsdiq olunmuş proqnoza (45 ABŞ dolları) nisbətən 10 ABŞ dolları artırılaraq 55 ABŞ dollarına çatdırılması nəzərdə tutulur.

Maliyyə nazirinin sözlərinə görə, dövlətin müdafiə və təhlükəsizliyinin daha da gücləndirilməsi üçün əlavə olaraq 166 milyon manat vəsaitin ayrılması məqsədə müvafiqdir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən bəzi neft yataqları (Ümid, Qarabağ və Babək yataqları) üzrə həyata keçirilən qazma işlərinin aparılması məqsədilə dövlət dəstəyi olaraq şirkətin nizamnamə kapitalının artırılması üçün 663 milyon manat və idxal olunan təbii qazın "Azerenerji" Açıq Səhmdar Cəmiyyətinə müqavilə dəyərindən aşağı qiymətə satışına görə yaranmış zərərin örtülməsi üçün şirkətə 300 milyon manat subsidiya olmaqla, cəmi 963 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

Turizmin inkişafı üçün 20 milyon manat, şəhər və rayon mərkəzlərində hündürmərtəbəli yaşayış evlərinin dam örtüklərinin dəyişdirilməsi, bərpası və yenidən qurulması işləri üçün 21 milyon manat, Bakı şəhərinin şəhərsalma və arxitektura planının yeni layihəsinin hazırlanması üçün 9 milyon manat vəsaitin ayrılması da nəzərdə tutulur. Ölkədə bir sıra vacib infrastruktur layihələrin həyata keçirilməsi üçün də vəsaitlər ayrılır və bununla əlaqədar dövlət investisiya proqramının maliyyə tutumu artırılır.

Hesablama palatasının sədri Vüqar Gülməmmədov "2018-ci il dövlət büdcəsinə dəyişikliklər edilməsi haqqında" qanun layihəsinin qanunvericiliyin tələblərinə uyğun hazırlandığını bildirib. O, Hesablama palatası adından qanun layihəsinin Milli Məclis tərəfindən qəbul olunmasını tövsiyə edib.

Komitənin iclasında Vergi Məcəlləsi, "Dövlət rüsumu haqqında", "Büdcə sistemi haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələri və "Hesablama palatası haqqında" qanun layihəsi üçüncü oxunuşda müzakirə edilib.

Qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Səbinə MƏMMƏDOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.-23 iyun.- S.4.